***ALİ MƏCLİSİN İCLASI***

*24 may 2024-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının yeddinci iclası keçirilir.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə ən azı 31 deputat parlamentin işində iştirak etməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında protokolun mənə verdiyi məlumata görə, 38 deputat iştirak edir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

| **Qeydiyyat** | (saat 11.00 dəq.) |
|---|---|
| İştirak edir | 38 |
| Yetərsay | 31 |

İclasın gündəliyinə iki məsələ verilmişdir:

1. “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş).

2. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş).

Bildiyiniz kimi, bu tip qanunlar üç oxunuşda müzakirə olunmalıdır.

Deputatlardan kim iclasın gündəliyinin təklif olunan qaydada təsdiq edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.01 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verməunder | 0 |
| İştirak edir | 38 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul olundu.

İşimizi bu iki məsələ üzərindən aparmağa başlayırıq.

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi 22 may 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilmiş, söylənilmiş

təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Layihənin birinci oxunuşunda verilmiş təkliflərə Ali Məclisin Hüquq siyasəti komitəsi tərəfindən baxılmış, müzakirənin nəticəsi olaraq layihənin yenilənmiş variantda ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınmışdır.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri İsmayıl müəllim Qəribliyə verilir.

Buyurun, İsmayıl müəllim.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 22 may 2024-cü il tarixli iclasında birinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinə dəyişikliklər edilməsi ilə bağlı deputatlar tərəfindən, eləcə də müvafiq sorğu əsasında Naxçıvan Muxtar Respublikasının Ədliyyə və Maliyyə nazirlikləri, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən edilmiş təkliflər qeydə alınmışdır. Ali Məclisin Hüquq siyasəti komitəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.6-cı maddəsinə uyğun olaraq təkliflərin müzakirəsini həyata keçirməlidir.

24 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində məsələ müzakirə olunmuş və yenidən işlənmiş qanun layihəsinin ikinci oxunuşa təqdim edilməsiylə bağlı komitə protokol qaydasında qərar qəbul etmişdir. Komitə hesab edir ki, "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun yenidən işlənmiş layihəsi ikinci oxunuşda baxılmaq üçün təqdim oluna bilər.

**Sədrlik edən.** Çox sağ olun, İsmayıl müəllim!

Qeyd olunanlarla bağlı əlavəsi olan varmı?

Yoxdur.

Cəlil müəllim, bir daha üç məqamı təkrarlamağınızı xahiş edirəm ki, deputatların məlumatı olsun və işimizi müzakirəsiz davam etdirək.

**C.Rüstəmov,** *Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri.*

Hörmətli deputatlar!

Qanun layihəsi razılaşdırılma üçün Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinə göndərilmiş və həmin orqanlar tərəfindən qanun layihəsi ilə bağlı müvafiq rəylər təqdim edilmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən verilmiş rəydə İdarənin adının qanun layihəsindən çıxarılması təklif olunmuşdur və izah üçün bildirilmişdir ki, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi müstəqil qurum olmadığından Mərkəzi Seçki Komissiyası ilə birlikdə

müvafiq hüquqi aktların qəbul olunmasında, razılaşdırılmasında iştirak edə bilməyəcək. Bu baxımdan qanun layihəsi bir daha müzakirə olundu və biz Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsini müstəqil qurum kimi qanun layihəsinə daxil edə bilmədiyimizdən ümumi ad altında "maliyyə bazarlarına nəzarət orqanı" kimi layihəyə daxil etdik və layihənin üç maddəsində dəyişikliklər aparıldı.

Belə ki, 80.1, 83.4 və 84.2.2-ci maddələrdə "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi" sözləri "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ilə əvəz olundu.

İkinci dəyişiklik isə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi tərəfindən layihənin 26-cı maddəsində Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası üzvlərinin maliyyələşdirilməsi və əməkhaqqısı ilə bağlı muxtar respublika büdcəsində müvafiq vəsait olmadığından məsələyə yenidən baxılmasıdır. Əvvəlcə bildirdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri daimi əməkhaqqı alır, digər üzvlər isə seçki dövründə seçkilərin elan olunduğu gündən seçkilərin nəticələrinin təsdiq olunduğu günədək əməkhaqqı alırlar və həmin iki aydan bir az artıq müddət üçün seçkiyə ayrılmış vəsait çərçivəsində onlar əməkhaqqı alacaqlar və bu da əlavə yük yaratmayacaq. Ona görə 26-cı maddə olduğu kimi saxlanıldı.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rəyində layihənin 17.1-ci maddəsinin vətəndaşların seçki hüququnun məhdudlaşması kimi izah oluna biləcəyini nəzərə alaraq layihəyə 17.3-cü maddənin əlavə olunması və bizim layihəyə daxil etdiyimiz "istirahət yerlərində, xəstəxanalarda və sanatoriyalarda olan vətəndaşlar üçün səsvermə keçirilmir" sözlərinin 17.3-cü maddə kimi əlavə edilməsini təklif etmişlər.

Bu məsələni bir daha müzakirə etdik. Onlar bunu Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun təklif edirlər. Seçki Məcəlləsi bildiyimiz kimi, dörd seçki növünü tənzimləyir. Vətəndaşlarımız Prezident və referendum seçkilərində ölkə üzrə vahid dairə olduğundan, yəni hamı eyni məsələyə səs verdiyindən, hər hansı bir vətəndaşın harada olmasından asılı olmayaraq, səsvermə hüququ yaranır. Lakin parlament və bələdiyyə seçkilərində dairələrin və namizədlərin sayı çox olduğundan ərazi üzrə şəxsin başqa yerdə olması, başqa namizədə səsverməsinin mənası qalmadığından bizim təklif etdiyimiz maddə heç bir vətəndaşımızın seçki hüququnu məhdudlaşdırmır. Ona görə də müzakirə nəticəsində qərara alındı ki, təklif etdiyimiz 17.1-ci maddəyə əlavə olunan xəstəxanalarda, sanatoriyalarda və istirahət yerlərində parlament seçkiləri günü səsvermənin keçirilməməsi və vətəndaşların səs verməməsi qanunvericiliyə uyğundur və buna görə də maddə olduğu kimi saxlanıldı.

Digər maddələrdə dəyişiklik olmayıb. Bu maddələr üzrə də komitədə müzakirələr aparıldı, qərar qəbul edildi.

**Sədrlik edən.** Geniş izaha görə çox sağ olun, Cəlil müəllim!

Hörmətli deputatlar, Daxili Nizamnaməyə görə biz maddə-maddə səsə qoymalıyıq, amma hesab edirəm ki, burada razılaşma var, həmçinin deputatlardan heç kəs çıxış üçün söz istəmədi. Cəlil müəllimin söylədiyi məqamları İsmayıl müəlim də komitənin sədri kimi bildirdi. Əgər icazə verirsinizsə, bunu fərqli formatda səsə qoyum.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilmiş qanun layihəsinin əsas kimi qəbul

edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Ona görə də ilk olaraq məsələnin maddə-maddə deyil tam şəkildə səsə qoyulmasına münasibətinizi bildirin.

Deputatlardan kim qanunun tam şəkildə səsə qoyulmasına tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

Yekdilliklə hamı razıdır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.08 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi əsas kimi ikinci oxunuşda da qəbul edildi.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.09 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi ikinci oxunuşda yekdilliklə qəbul edildi.

Hörmətli həmkarlarım, gündəlikdə duran ikinci məsələnin müzakirəsinə keçirəm. Bu məsələ əvvəlcədən sizə çatdırdığım kimi, "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsidir.

Qanun layihəsi 22 may 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilmiş, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Layihənin birinci oxunuşunda verilmiş təkliflərə Ali Məclisin İqtisadi siyasət komitəsi tərəfindən baxılmış, müzakirənin nəticəsi olaraq layihənin ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınmışdır.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri İsa İsayevə verilir.

Buyurun, İsa müəllim!

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli sessiya iştirakçıları!

Əvvəlcə hamınızı salamlayıram.

Bildiyiniz kimi, “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunmuşdur. Təqdim olunmuş qanun layihəsi 18 may 2024-cü il tarixdə İqtisadi siyasət komitəsində, 22 may 2024-cü il tarixdə isə Ali Məclisin sessiyasında geniş tərkibdə və aktiv şəkildə müzakirə edilmişdir.

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi birinci oxunuşda qəbul olunmuşdur və hər hansı bir dəyişiklik olmadığı üçün ikinci oxunuşa təqdim edilə bilər.

**Sədrlik edən.** Məlumat üçün çox sağ olun, İsa müəllim!

Hörmətli deputatlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsini yenidən təkrarlayıram. İkinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Mən bu qanun layihəsini də maddə-maddə səsə qoyulması prosedurunu yerinə yetirməyə çalışmalıyam. Mahiyyət etibarı ilə qanun layihəsindəki maddələrə iradımız yoxdur. Düzdür, burada Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov da iştirak edir. O da keçən iclasımızda qeyd etdi. Hesab edirəm ki, bizim bu qanundakı maddələri dəyişməyə, nəsə əlavə etməyə heç bir səbəbimiz yoxdur. Prosedura uyğun olaraq sizdən soruşmalıyam ki, əgər etirazınız yoxdursa, bunu səsə qoyum.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 10.12 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi əsas kimi ikinci oxunuşda da qəbul edildi.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 10.13 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran bu iki məsələ idi. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırdı.

Sağ olun!